*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 46-51*
https://doi.org/10.62837/2024.6.46

**GÜNEL İQBAL QIZI ƏLIYEVA**
**ADMİU**
**E-mail: gunelceferli1998@gmail.com**

# XARİCİ DİL DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQİN FORMALAŞMASINA DAİR

**Açar sözlər:** xaric dil, şifahi nitq, nitqin inkişafı, şifhi nitqin formalaşması, ünsiyyət

**Ключевые слова:** иностранный язык, устная речь, речевое развитие, формирование устной речи, общение

**Key word:** foreign language, oral speech, speech development, formation of oral speech, communication

Təhsilin səmərəliliyinin yüksəldilməsinə, gənclərin müstəqil həyata və əməyə hazırlanmasının kökündən yaxşılaşdırılmasına, cəmiyyətin şüurlu qurucularının tərbiyə edilməsinə daha qətiyyətlə nail olmaq lazımdır. Bu baxımdan məktəbin, müəllimin üzərinə böyük vəzifələr düşür. Həmin vəzifələr eynilə xarici dil müəllimlərinə də aiddir.

Təcrübə və müşahidələr göstərir ki, şagirdlərin bir qismi xarici dildə heç bir praktik fayda görməyib, ona ikinci dərəcəli fənn kimi baxırlar. Bu, xarici dillərin öyrənilməsi yolunda psixoloji sədd yaradır. Müəllimlər həmin maneəni aradan qaldırmağa səy göstərməli və yaradıcılıqla işləməlidirlər.

Xarici dil tədrisinin məqsədi dildən ünsiyyət vasitəsi kimi istifadə etməyi öyrətməkdən ibarətdir. Belə ki, şagirdlər şifahi nitqə yiyələnməli və bu dildə olan kiçik və sadə mətnləri oxuyub başa düşə bilməlidirlər.

Bu iş iki yolla aparılır:

a) canlı şifahi nitqi inkişaf etdirmək yolu ilə;

b) mütaliə vasitəsi ilə.

Lakin bunları bir-birindən ayırmaq olmaz. Şagirdlər bu və ya bir xarici dildə olan sadə mətnləri oxuyub başa düşməklə bərabər, həmin dildə danışmağı da bacarmalıdır. Müəllimin də diqqət mərkəzində bu məsələ durmalıdır. Şagirdlər bu və ya başqa bir xarici dildə olan sadə mətnləri oxuyub başa düşməklə bərabər, həmin dildə danışmağı da bacarmalıdırlar. Müəllimin də diqqət mərkəzində bu məsələ durmalıdır.

Şagirdlərin xarici dillərin öyrədilməsinin səmərə və keyfiyyətinin yüksəldilməsi əsas etibarilə uşaqların həmin fənni tədris edən müəllimlər tərəfindən xarici dili öyrənmək fəaliyyətinə necə cəlb edilməsindən, onun öyrənilməsinə maraq oyadılmasından asılıdır. Söz və ifadələri, xüsusi quruluşa malik olan cümlələri avtomatlaşdırmaq üçün təmrinlər sistemi düzəltmək lazımdır. Bunları adi

təmrinlərdən fərqləndirən cəhət onların şifahi olması və tanış sözləri əsasında qurulmasıdır. Bu təmrinlərin məqsədi nitq nümunələrini möhkəmləndirməkdən ibarətdir. Hər yeni nitq nümunəsi verildikdə bütün aktiv söz ehtiyatı təkrarlanmalıdır. Verilən hər söz elə mənimsənilməlidir ki, istənilən vaxt şagirdin şüurunda canlana bilsin və şagird lazım olduqda ondan istifadə etsin.

Şifahi nitqin inkişafı üçün müxtəlif üsullardan istifadə edərkən bunların tərbiyəvi əhəmiyyətini də qeyd etmək lazımdır. Şifahi nitqin inkişafı şagirdlərin dilə maraq göstərmələri üçün yeni imkanlar açır. Məktəblərdə dilə maraq dil təliminin ilk günlərindən, şagirdlərin bir fikri iki dildə ifadə etməyi başladığı gündən yaranır. Təlim işi düzgün qurulduqda bu maraq tədricən inkişaf etdirilib möhkəmləndirilir. Şagirdlər dili öyrənərkən bir sıra çətinliklərə rast gəlirlər ki, bunu da dəf etmək üçün onlardan təfəkkür, hafizə və diqqətin aktiv fəaliyyəti tələb olunur. Belə ki, şifahi nitqə yiyələnmə işində keçirilmiş mətnlərin, şeirlərin, dialoqların və eləcə də şəkillərin məzmunu böyük əhəmiyyətə malikdir.

Yuxarıda qeyd etdiyimiz kimi, xarici dilin təlimində maraq böyük rol oynayır. Bu marağı yaratmaq üçün dərslərin, xüsusən, birinci dərslərin yüksək səviyyədə keçməsi əsas şərtlərdəndir. Bu dövrdə müəllimin ciddi əməyi tələb olunur. Xarici dili öyrənməyin şagirdlərin gücünə müvafiq olmasını onların şüuruna çatdırmaq lazımdır.

Şagirdlərin xarici dildən biliyi artıqca onların qarşısında yeni tələblər qoyulur. Xarici dilə maraq oyatmaq üçün kitab mətnlərini əzbər söyləmək, daha sonra isə iki-üç cümlədə məzmunu şərh etmək tələb olunur. Məntiqi cəhətcə bir-birinə bağlı mətnlər başladıqdan sonra onun üzərində əsaslı iş aparılmalıdır. Yəni orada olan söz, ifadə və xüsusi quruluşa malik olan cümlələr təkrarlanmalı və möhkəmləndirilməlidir ki, şagirdə çətinlik törədən hər bir şey olmasın. Şagirdlərin yorulmaması üçün mətnlərin nağıl edilməsini aşağıdakı müxtəlif formalarda təşkil etmək lazımdır:

a) mətnin məzmununun bir şagird tərəfindən nağıl edilməsi;

b) mətndə olan hər bir hadisənin müxtəlif şagird tərəfindən nağıl edilməsi;

c) mətnin cümlələrlə danışılması.

Şifahi nitqin inkişafı yalnız kitab mətnlərini danışmaqla məhdudlaşdırılmır. Şagirdlərin söz ehtiyatı çoxaldıqca onlarda aparılan işlərin məzmunu da mürəkkəbləşir. Müəllim şagirdlər tərəfindən əzbər söylənilmiş yaxud danışılmış mətnlərə yenidən qayıdır. Bu dəfə işin forması dəyişir. Şagirdlər üçüncü şəxsdə danışdıqları mətni birinci şəxsdə və ya əksinə danışırlar. Burada onlar müəyyən dərəcədə yaradıcı hərəkət edirlər. Bu zaman müəllim dil hadisələrinin nə dərəcədə şüurlu mənimsənildiyini müşahidə edir və ondan lazımi nəticələr çıxarır. Sonrakı məşğələlərdə başqa mətnləri də bu qayda ilə danışmaq olar. Bu məqsədlə aşağıdakı mətnləri verməyi məqsədə müvafiq görürük. “Ailə”, “Ölkəm”, “Məktəb”, “İstirahət günü” və s.

Müəllim çalışmalıdır ki, mətnlərdə olan ifadələrin hər birini ayrılıqda şagirdlərin fəal söz ehtiyatından keçirilsin. Bu növ iş böyük əmək tələb edir. Müəllim bu prosesə ciddi nəzarət etməli, şagirdlərin yanlış cümlə qurmasına və səhv tələffüzünə yol verməməlidir.

Şifahi nitqi inkişaf etdirmək üçün dialoqlar da qiymətli vasitədir. Quruluş etibarı ilə sadə və şagirdləri əhatə edən mövzulardan bəhs edən dialoqların söylənilməsini təşkil etmək lazımdır. Bu dialolarda olan sözlər keçilmiş mətnlərdən şagirdlərə tanış olmalıdır. Burada məqsəd yeni söz vermək yox, keçmişləri təkrar etmək və şagirdlərin danışıq qabiliyyətlərini inkişaf etdirməkdən ibarətdir. Dialoqları maraqlı şəkildə qurmaq üçün bir neçə şagirdin söhbətini təşkil etmək məqsədi daha müvafiqdir. Təlimin bu dövründə verilən dialoq mövzuları məişətdən götürülmədir. Yuxarı sinif şagirdləri isə dialoqları məişət məsələlərindən başqa ictimai-siyasi və gündəlik məsələlərlə bağlı olub bədii xarakter daşımalıdır.

Dialoqları qurarkən keçilmiş mətnləri yada salmaq zəruridir. Bu zaman müəllim mətni kollektiv surətdə şagirdlərə söylədir, daha sonra hadisələrlə danışdırır və həmin mətnlə əlaqədar sual-cavab aparır, nəhayət 2-3 şagird həmin mövzunun ətrafında söhbət aparır. Bu işin ən qiymətli cəhəti də orasındadır ki, danışan tərəflərin hər biri həm sual verir, həm də verilmiş suallara cavab verir.

**Məlumdur ki,** xarici dilləri bilmək insanın ümumi inkişafına-dünyagörüşünün genişlənməsinə müsbət təsir göstərir. Beynəlxalq, elmi, iqtisadi, mədəni və siyasi məlumatlarla, başqa xalqların həyat tərzi ilə tanış olmaq üçün yeni və əlavə bir vasitədən-xarici dildən istifadə olunur. Fənnin tədrisinin ilk mərhələsində şagirdlərin xarici dildə şifahi nitqinin inkişaf etdirilməsinə xüsusi fikir vermək tələb olunur. Müəllim vaxtaşırı mütaliə edilmiş ədəbiyyatdan şagirdlərin necə istifadə etdiklərini, hansı söz, ifadə və cümlələri seçdiklərini yoxlamalı və onların nə dərəcədə məqsədə müvafiq olduğunu şagirdlərə çatdırmalıdır. Ancaq belə halda oxu şifahi nitqin inkişafına kömək edər və şagirdlərin dünyagörüşünü genişləndirmək üçün yararlı ola bilər. Şifahi nitqin müvəffəqiyyətlə inkişaf etməsi üçün dilin lüğəti, onun qrammatik qurluşu, tələffüz xüsusiyyətləri, mətnlərin təhlili, eləcə də tərcüməsi oxunmuş mətnlərin aşılanması və s. zəncir kimi bir-biri ilə bağlanmalıdır.

Bu prosesin ana xətti şüurluluq, fəallıq və əyanilik olmalıdır. Ancaq belə halda şifahi nitqin inkişafı proqramın tələblərini təmin edə bilər.

Qeyd edək ki, bunlar sadəcə oyun deyil, real ünsiyyət şəraiti yaratmaq üçün istifadə olunan üsullardır. Bu ünsiyyətdə hər hansı şərtilik, sünilik olmur. Belə vəziyyətlərdə nitqi kommunikasiya şəraitin real idarəetmə vasitəsinə çevrilir.

Şagirdlərin xarici dilə yiyələnmələrində real nitq ünsiyyəti şifahi nitq metodikasının ən əsas tələblərindən biri olmalıdır. Biz burada göstərməyə çalışdıq ki, tədrisin başlanğıcında ən sadə suallardan istifadə etməklə buna nail olmaq

mümkündür. Şifahi nitqin müvəffəqiyyətlə inkişaf etməsi üçün dilin lüğəti, onun qrammatik quruluşu, tələffüz xüsusiyyətləri, mətnlərin təhlili, eləcə də tərcüməçi oxunmuş mətnlərin anlaşılması və s. zəncir kimi bir-biri ilə bağlanmalıdır.
Bu prosesin ana xətti şüurluluq, fəallıq və əyanilik olmalıdır. Ancaq belə halda şifahi nitqin inkişafı proqramın tələbini təmin edə bilər.

**Məqalənin aktuallığı**: Məlum olduğu kimi, xarisi dil dərslərində şifahi nitqin təkmilləşdirilməsi.

**Məqalənin elmi yeniliyi:** Məqalədə xarisi dil dərslərində şifahi nitqin təkmilləşdirilməsi probleminə nəzər salınır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**: Məqalədən xatici dil üzrə təhsil alanlar, xarici dilinin tədrisi ilə məşğul olan müəllimlər həm nəzəri, həm də praktik baxımdan faydalana bilər.

## ƏDƏBİYYAT

1. Axundov A.Ümumi dilçilik. Bakı. 1988
2. Ağayeva F.Azərbaycan danışıq dili. Bakı. 1987.
3. Большой англо-русский словарь, т.2., М., 1987
4. Cəfərov S.Masir Azərbaycan dili. Bakı. 1982
5. Xudiyev N.Tərcümə ədəbiyyatı və ədəbi dilimiz.Bakı. 1991
6. Бархударов Л.С., ШтеллингД.А. «Грамматика английского языка» Москва.1965
7. Власов С., Флорин С.Непереводимое в переводе. М., 1987
8. Qayıbova R.İngilis dilinin qrammatikası. Bakı. 1958.
9. The Begining of American English/ Essays and commens. Chicago. 1963.
10. Longman Distionary of English Language and Culture. Longman. 1998.

**Г.И.Алиева**

**О формировании устной речи на занятиях иностранным языком**

Резюме

В настоящее время изучение иностранного языка является актуальной проблемой. Потому что изучение языка очень важно для развития интереса людей друг к другу.

Несомненно, невозможно представить жизнь человеческого общества без языка. Очень хорошо, если человек знает несколько языков. Чем больше языков ты знаешь, тем больше ты личность. Знать множество языков – важная и полезная задача. Знание многих языков–это способности, талант, редкие экстраординарные способности человека и т. д.

При использовании различных методов развития устной речи необходимо упомянуть об их воспитательном значении. Развитие устной речи открывает перед учащимися новые возможности проявления интереса к языку. При изучении языка необходима активная деятельность мышления, памяти и внимания. Содержание текстов, стихотворений, диалогов, а также картинок имеет большое значение в процессе овладения устной речью.

Иностранный язык на планете, на которой мы живем, занимает важное место в общении, он помогает развитию научно-технической революции, обмену духовными и культурными богатствами, расширению нашей страны среди народов, а также международным коллаборационистам.

**G.İ.Alieva**

**On the formation of oral speech in foreign language classes**

**SUMMARY**

At present, learning a foreign language is an urgent issue. Because learning the language is very important for the development of people's interest in each other. Undoubtedly, it is impossible to imagine the life of human society without language. It is very good for a person to know several languages. The more languages you know, the more you are a person. Knowing many languages is an important and useful task. Knowing many languages is a person's ability, talent, extraordinary ability, etc. is related to each other.

When using various methods for the development of oral speech, it is necessary to mention their educational importance. The development of oral speech opens up new opportunities for students to show interest in language. Active activity of thinking, memory and attention is required when students are learning a language. The content of the texts, poems, dialogues, and also pictures is of great importance in the process of mastering oral speech. communication, it helps the development of the scientific and technical revolution, the exchange of spiritual and cultural wealth, the expansion of our country among the peoples, as well as international collaborators.

**Günel İqbal qızı Əliyeva**

**Xarici dil dərslərində şifahi nitqin formalaşmasina dair**

**Xülasə**

Hazırda xarici dil öyrənmək aktual məsələdir. Çünki insanların bir-birinə marağının inkişafı üçün dil öyrənmək çox vacibdir.

Şübhəsiz ki, insan cəmiyyətinin həyatını dilsiz təsəvvür etmək mümkün deyil. İnsanın bir neçə dil bilməsi çox yaxşıdır. Nə qədər çox dil bilirsənsə, bir o qədər də

insansan. Çox dil bilmək vacib və faydalı işdir. Çox dil bilmək insanın qabiliyyəti, istedadı, qeyri-adi qabiliyyəti və s. bir-biri ilə bağlıdır.

Şifahi nitqin inkişafı üçün müxtəlif üsullardan istifadə edərkən onların tərbiyəvi əhəmiyyətini qeyd etmək lazımdır. Şifahi nitqin inkişafı şagirdlərin dilə maraq göstərməsi üçün yeni imkanlar açır. Şagirdlər dil öyrənərkən fəal təfəkkür, yaddaş və diqqət fəaliyyəti tələb olunur. Şifahi nitqin mənimsənilməsi prosesində mətnlərin, şeirlərin, dialoqların, habelə şəkillərin məzmunu böyük əhəmiyyət kəsb edir. Rabitə, elmi-texniki inqilabın inkişafına, mənəvi və mədəni sərvətlərin mübadiləsinə, ölkəmizin xalqlar, eləcə də beynəlxalq əməkdaşlar arasında genişlənməsinə kömək edir.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçilər: filologiya üzrə fəlsəfə doktoru, dosent İradə Qafur qızı Rəsuli tərəfindən çapa tövsiyə olunmuşdur**